*Bu kitab müstəqil Azərbaycan Respublikasının qurucusu, dünyada yaşayan bütün azərbaycanlıların Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə qələmə alınıb.*

**Aslan Cəfərov**

# TARİXİMİZİN HEYDƏR ƏLİYEV ZİRVƏSİ



*«Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram».*

***Heydər Əliyev,***
***Ümummilli Lider***

AZƏRBAYCAN KİTAB, MAARİF
VƏ POLİQRAFÇILAR İCTİMAİ BİRLİYİ

Aslan Cəfərov

12053

# TARİXİMİZİN HEYDƏR ƏLİYEV ZİRVƏSİ

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZIDENT KİTABXANASI

BAKI – 2023

63.3(5Az)6-8 ЧПЕ.3(5Az)Я
C50

Naşir: **Tural Axundov**

Redaktoru: **Osman Musayev**

Nəşriyyat redaktoru: **Mustafa Çəmənli**

Buraxılışa məsul: **Bəhram Oruclu**

Koordinator: **Ruslan Ələkbərov**

C77 **Cəfərov A.** Tariximizin Heydər Əliyev zirvəsi (məqalələr). Bakı, "Təhsil", 2023, 240 səh.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının direktoru Aslan Cəfərovun sənədli materiallar əsasında yazdığı "Tariximizin Heydər Əliyev zirvəsi" kitabında Ümummilli Liderimiz Heydər Əliyevin siyasi irsinin müəyyən məqamları araşdırılır. Bu irsdəki milli-mənəvi dəyərlər, azərbaycançılıq ideologiyası, gənclər siyasəti... dövlətçiliyimizi gücləndirən digər amillər müxtəlif istiqamətlərdən olan elmi mənbələrlə təhlil olunaraq geniş oxucu kütləsinə təqdim edilir.

Kitabda eyni zamanda Heydər Əliyevin respublikamıza ikinci dəfə rəhbərlik etdiyi dövrdə Azərbaycanın ictimai-siyasi həyatından, eləcə də elm, təhsil və mədəniyyətin tərəqqisi yolunda əvəzolunmaz xidmətlərindən söhbət açılır.

C $\frac{4502020000}{053}$ 2023

**ISBN:** 978-9952-576-00-9

© "Təhsil", 2023

## ZƏMANƏMİZİN ƏN GÖRKƏMLİ SİYASİ XADİMİ

Tarixdə elə nəhəng zirvələr var ki, ondan uzaqlaşdıqca əzəmətini və böyüklüyünü daha aydın görürsən. Belə zirvələri fəth etmiş ən böyük şəxsiyyət hər zaman güclü və məğrur olmağı bacaran Heydər Əliyevdir.

Müstəqil Azərbaycan dövlətinin təşəkkül tapması Ümummilli Lider, dünyamiqyaslı dahi şəxsiyyət Heydər Əliyevin misilsiz xidmətidir. Ölkəmiz məhz onun müəyyən etdiyi siyasi kursla irəliyə doğru inamla addımlar atır. Azərbaycanın ən yeni tarixinin 33 illik bir mərhələsi Heydər Əliyevin adı və titanik fəaliyyəti ilə bağlıdır. Heydər Əliyev şəxsiyyətinə dünyəvi hörmət, ehtiram və ümumxalq sevgisi əbədidir. Ulu Öndər bütün həyatı boyu Azərbaycanın inkişafı və tərəqqisi naminə mübarizə aparmış, xalqını taleyin sərt sınaqlarından məharətlə çıxarmağı bacarmışdır.

Tarix onun kimi insanları yüz ildən bir yetirir. Bu dahi insanın ölkəmizə rəhbərliyinin bütün dövrlərində Azərbaycanın iqtisadi dirçəlişi, tərəqqisi təmin edildi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri yaxşı başa düşürlər ki, Heydər Əliyev olduqca iti zəkaya, sağlam düşüncə tərzinə malik dahi bir insan idi. Onun tarixi xidmətləri, xilaskarlıq və quruculuq missiyası müasir dünyanın görkəmli dövlət xadimləri, siyasətçiləri tərəfindən çox yüksək dəyərləndirilib. Dünyanın məşhur ictimai-siyasi xadimlərinin, dövlət adamlarının və mütəfəkkirlərinin onun haqqında söylədikləri fikirlər bu dahinin şəxsiyyətinə və çoxşaxəli dövlətçilik fəaliyyətinə verilən yüksək qiymətin, göstərilən ehtiram və heyranlığın ifadəsidir. Moskvanın keçmiş meri Yuri

Lujkov vaxtilə belə demişdir: "Biz Heydər Əliyevin həm öz xalqı üçün, həm də başqa xalqlar üçün gördüyü bütün işləri heç zaman unutmayacağıq". Amerika tarixçisi O. Aldstad isə "Bütün güclü şəxsiyyətlər kimi, Heydər Əliyev də hamını öz arxasınca apara bilir" demişdir. İngiltərənin keçmiş baş naziri M. Tetçerin qənaətinə görə, Heydər Əliyev zəmanəmizin ən görkəmli siyasi xadimlərindən idi. Dünyanın ən məşhur dövlət xadimlərinin portretlərinin müəllifi, görkəmli rəssam Nikos Safronov Ulu Öndərin 80 illik yubileyi münasibətilə onun portretini çəkərkən dahi rəhbərlə ünsiyyətdə olduqdan sonra bu qənaətə gəlmişdir ki, Heydər Əlirza oğlu Əliyev Tanrının yaratdığı möcüzədir. Belə şəxsiyyətlər min ildə bir dəfə dünyaya gəlir.

Heydər Əliyev sanki dünyaya elə xalq üçün, onun səadətə yetişməsi üçün gəlmişdi. Haqqın, ədalətin bərpası, ölkənin inkişaf etdirilib sivil cəmiyyətə çevrilməsi üçün çəkdiyi min bir əziyyət onun tale yolu, ömür yolu olmuşdur. Dünya siyasətində nəhəng şəxsiyyət olan Ulu Öndər qısa zaman kəsiyində respublikanı yetərincə tanıdaraq dünyanın ölkəmizə qarşı iqtisadi və siyasi maraqlarını artırmışdır. O, Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaqdır.

Azərbaycanın hər bölgəsində Heydər Əliyevin quruculuq fəaliyyətinin silinməz izləri var. Ulu Öndər həyatı boyu həmişə xalqa arxalanmışdır. "Mənim həyat amalım, bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".



Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar, dövlətimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Ulu Öndərin Azərbaycanla, xalqla bağlı arzuları bitib-tükənməz. Vətənə, xalqa olan məhəbbəti hədsiz-hüdudsuz idi. Onun ürəyi Azərbaycan qədər geniş idi, dünyanın hansı ölkəsinə gedirdisə, Azərbaycanı, onun problemlərini də qəlbində aparırdı. Heydər Əliyev Vətəni üçün, xalqı üçün doğuldu, vətənin, xalqın tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün çalışdı. Müqəddəs amalları və fəaliyyəti ilə xalqın gözündə, qəlbində ucaldı. Ona görə də xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir. Ümummilli Lider əsl ümumxalq məhəbbəti, sevgisi qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. O, respublikaya rəhbərlik etdiyi uzun illər ərzində gördüyü nəhəng işləri ilə xalqın qəlbində özünə əbədi abidə ucaldıb. Ona görə də nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır. Bu isə əbədiyyət deməkdir. Dahi şəxsiyyətin müəyyənləşdirdiyi strateji inkişaf yolunun davamı müstəqil Azərbaycan dövlətinin gələcəyi, onun daha da güclənməsi, ərazi bütövlüyünün bərpa olunması, hər bir vətəndaş üçün firavan və rahat həyat şəraitinin yaradılması deməkdir. Heydər Əliyevin başladığı işləri davam etdirmək, qurduğu dövləti yeni-yeni uğurlara çatdırmaq onun ruhu qarşısında ən ümdə borcumuzdur.

Ulu Öndərin mənalı ömür yolu vətənə sədaqət nümunəsidir. Bütün dünya bunu yaxşı görüb dərk edir və lazımınca qiymətləndirir. Dünyanın ən tanınmış siyasətçiləri bu böyük zəka sahibinin işlərini, onun dəyərli irsini örnək kimi qəbul edirlər. Çünki onlar hələ sovetlər zamanından Heydər Əliyevin nələrə qadir olduğunun şahidi idilər. Təkrarsız təşkilatçılıq qabiliyyətinə malik olan Ulu

Öndər milli iqtisadiyyatın dinamik inkişafından ötrü əlindən gələni edib. Xüsusən də, ən müxtəlif sahələrdə işləyəcək kadr potensialı yaratmaq onun fəaliyyətinin əsas istiqamətlərindən biri olmuşdur. O zamanlar ölkədə neçə-neçə böyük zavodlar və fabriklər, sosial-mədəni obyektlər tikilib istifadəyə verilmişdir. Bu müəssisələrin əksəriyyəti indi də fəaliyyətdədir və xalqın firavan həyata qovuşmasına xidmət göstərir. Bu gün hər bir Azərbaycan vətəndaşı dərin iftixar hissi ilə qeyd edir ki, müstəqil Azərbaycan dövləti Ümummilli Liderimizin şah əsəridir, onun öz xalqı qarşısında tarixi xidmətidir. Məhz buna görə Heydər Əliyevin adı tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Ulu Öndərin vaxtilə bölgələrə etdiyi səfərlər unudulmazdır. O, pambıq tarlalarında, taxıl zəmilərində, tikinti meydançalarında, üzüm bağlarında...tez-tez olur, zəhmət adamları ilə səmimi görüşlər keçirir, böyük layihələrin təməlini qoyurdu. Ümummilli Liderin dövründə yaradılmış istehsal və xidmət müəssisələri onun bilavasitə göstərişləri, layihələri və iradəsi sayəsində meydana gəlmişdir.

"Azərbaycan – Heydər Əliyev" əsrlər boyu qoşa səslənəcəkdir. Onun nurlu xatirəsi qəlbimizdə, yaddaşımızda əbədi yaşayacaqdır. O, bizim üçün həmişə əziz olub, əziz olaraq da qalacaqdır. Dahi və bənzərsiz şəxsiyyət Azərbaycanın simvoluna çevrilmiş parlaq Günəşdir ki, üzərimizə səpələnən şüaları onun işıqlı ideyalarıdır. Bu şüalar həyatımızın hər sahəsinə işıq salır, bizə yol göstərir. Bir sözlə, Azərbaycanı inkişaf etdirən, ona beynəlxalq aləmdə nüfuz qazandıran Heydər Əliyev siyasəti uğurlu sabahımızın, xoşbəxt gələcəyimizin təminatçısıdır.

Ümummilli Liderimiz bu gün aramızda yoxdur. Təsəllimiz odur ki, Heydər Əliyevin sönməz ideyalarının davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında inamla gələcəyə addımlayırıq. Bu isə o deməkdir ki, dövlətimiz etibarlı əllərdədir. Möhtərəm Prezidentimizin təşəbbüsü və rəhbərliyi ilə işlənib hazırlanmış dövlət proqramlarının icrası bütün sahələrdə misilsiz bir canlanma, işgüzarlıq ovqatı yaratmışdır. Bu vüsətli quruculuq əhvali-ruhiyyəsi ərzaq, enerji və nəqliyyat təhlükəsizliyi şəraitində özünü xüsusilə aydın şəkildə göstərir.



İnanırıq ki, müstəqil Azərbaycan böyük öndərin dühasından bəhrələnərək möhtəşəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində daha da inkişaf edəcək, müstəqilliyini, suverenliyini qoruyub saxlayacaq və daha da möhkəmlənəcəkdir.

## QARANLIQDAN AYDINLIĞA

...1991–1993-cü illərdə Azərbaycan öz tarixinin keşməkeşli və mürəkkəb dövrünü yaşayırdı. Respublikamız yeni tarixi şəraitdə əldə edilmiş dövlət müstəqilliyini, digər tərəfdən Ermənistanın açıq təcavüzünün doğurduğu sosial-iqtisadi və siyasi böhran nəticəsində böyük təhlükə ilə üzləşməli oldu. Ölkədə hökm sürən hərc-mərclik, qeyri-sabit ictimai-siyasi vəziyyət, dövlət idarəçilik sisteminin iflası 1993-cü ilin iyun ayında Gəncədə baş vermiş hadisələrdə özünü bütün çılpaqlığı ilə büruzə verərək, apogey həddinə çatdı. İyunun 4-də Gəncədə Surət Hüseynova tabe olan hərbi hissələrlə hökumət qoşunları arasında baş verən qarşıdurmada qan tökülməsi və sonuncuların uğursuzluğa düçar olması cəbhə hakimiyyətinin hərbi siyasi dayaqlarını əsaslı surətdə laxlatmaqla bərabər, ölkədə ictimai-siyasi vəziyyəti daha da gərginləşdirdi və hakimiyyət böhranını sürətləndirdi. Vətəndaş müharibəsinin ilk qığılcımlarının alovlanma təhlükəsinin artması ilə eyni vaxtda ermənilərin hərbi əməliyyatlarının genişlənməsi Azərbaycan dövlətçiliyini məhvə doğru sürükləyirdi.

Xalq kütlələri respublikanın nicatını Heydər Əliyevin dövlət rəhbərliyinə dəvət olunmasında görürdü. Hakimiyyət xalqın tələbi ilə hesablaşmaq məcburiyyətində qalaraq Heydər Əliyevə müraciət etməli oldu.

Lakin Heydər Əliyev yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtmaq fikrində olmadığını bildirərək, bu təklifi qəbul etmədi. İyunun 7 və 8-də Naxçıvana göndərilmiş xüsusi təyyarə ilə Bakıya gəlməkdən imtina edən Heydər Əliyev respublikada vəziyyətin



getdikcə daha da gərginləşərək dövlətçilik üçün təhlükəli xarakter kəsb etməsini və xalqın müxtəlif təbəqələrinin arzusunu nəzərə alaraq, Əbülfəz Elçibəyin təkidli xahişindən sonra, nəhayət, iyunun 9-da Bakıya gəldi.

1993-cü ilin fırtınalı iyun günlərində Bakıya gəlib ölkəyə rəhbərlik məsuliyyətini öz üzərinə götürərkən Ulu Öndər dedi ki, bundan sonrakı ömrünü xalqına bağışlayır. Doğrudan da, belə oldu. Ümummilli Liderimiz yalnız Vətəni və xalqı üçün yaşamağa başladı.

Respublika paytaxtında aparılan müzakirələrdən sonra Heydər Əliyev Gəncə hadisələrinin yerində daha dərindən araşdırılması, vəziyyətin obyektiv qiymətləndirilməsi və mövcud böhranın dəf olunması məqsədi ilə konkret tədbirlərin müəyyənləşdirilməsi üçün Gəncəyə səfər etməyi qərara aldı. Orada keçirilən görüşlər və aparılan danışıqlar gərginliyin qismən azaldılmasına, qarşıdurmanın dinc vasitələrlə nizamlanması üçün şəraitin yaradılmasına kömək etdi.

Heydər Əliyevin səyi nəticəsində Azərbaycan dövlətçiliyini təhlükə qarşısında qoyan vətəndaş müharibəsinin alovlarını söndürmək və vəziyyətin daha da kəskinləşməsinin qarşısını almaq mümkün oldu.

Beləliklə, yenidən bütün varlığı ilə xalqımızın taleyüklü problemlərinin həllinə qatılan Heydər Əliyev iyun ayının 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Həmin gün o, Milli Məclisin iclasında çıxış edərək Azərbaycanın dövlət müstəqilliyini qorumağı və möhkəmləndirməyi özünün əsas vəzifələrindən biri hesab etdiyini bildirdi. Eyni zamanda Azərbaycanın ərazi bütövlüyünün təyin olunması, bazar iqtisadiyyatına söykənən demokratik dövlət quruculuğu vəzifələrinin həyata keçirilməsinin zəruriliyini bəyan etdi.

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

